# Kazus

Baş Prokurorluğun Mütəşəkkil Cinayətkarlıq Şöbəsinin prokuroru ərizəçi cənab X.-ə qarşı cinayət icraatına başlayıb. O, cinayət törətməkdə, yəni J.M. adlı birisindən oğurlanmış maşınını geri qaytarmağa görə 7.000 ABŞ dolları tələb etməkdə və bu məbləği almaqda şübhəli sayılıb. Ərizəçiyə şantaj və qurbanı yalan ifadələr verməyə təhrik etmə də daxil olmaqla, dörd bənd üzrə ittiham olunub. İşin ibtidai istintaqı Baş Prokurorluğun Mütəşəkkil Cinayətkarlıq Şöbəsinin prokurorları tərəfindən aparılıb. İstintaq yekunlaşandan sonra ərizəçiyə və onun vəkilinə işin materialları ilə tanış olmaq imkanı verilib. İşin materialları ilə tanış olduqdan sonra ərizəçi və onun vəkili prokurorluq qarşısında işə xitam verilməsi barədə vəsatət qaldıraraq iddia ediblər ki, ərizəçiyə qarşı ittihamlar əsassızdır və "işin materiallarında onun təqsirinə dair heç bir sübut yoxdur".
Ertəsi gün Mütəşəkkil Cinayətkarlıq Şöbəsinin prokuroru ərizəçinin vəsatətlərini rədd etdi. Öz qərarında prokuror digər məsələlərlə yanaşı bildirdi ki:
"İşin materialları ilə tanış olduqdan sonra ... ərizəçi cinayət işinə xitam verilməsi barədə vəsatətlər verərək belə əsas gətirib ki, o, iddia edilən cinayətləri törətməyib ... və onun təqsiri ... sübuta yetirilməyib. Bu iddialar əsassız sayılaraq rədd edilməlidir, çünki ibtidai istintaqın gedişində toplanmış sübutlar nəticəsində müəyyən edilib ki, ***ərizəçi bu cinayətlərə görə təqsirkardır.***
Cənab X. iddia edilən cinayətləri törətdiyini boynuna almasa da, onun təqsiri şahidlərin ifadələri ilə, ... video və audio yazılarla ... və ibtidai istintaqın gedişində toplanmış digər materiallarla sübut edilib. Cənab X.-in cinayəti ört-basdır etməsi ... şahidlər S.C., V.V. və A.L.-in verdiyi ifadələr vasitəsilə sübut edilib. ... Cənab X.-in zərərçəkən J.M.-in mülkiyyətini əldə etmək üçün ona hədə-qorxu gəlməsi ... S.C.-nin verdiyi ifadə ilə və maddi sübutlarla təsdiq olunub. ... Cənab X.-in maşının oğurlanmasını həyata keçirmiş şəxslərlə əlbir olması onun öz ifadələri vasitəsilə sübut edilib. ... Cənab X.-in ... zərərçəkəni təhdid etməsi J.M. və S.C.-nin verdiyi ifadələrin və maddi sübutların vasitəsilə tam sübuta yetirilib. ... Prokurorluq yuxarıdakı sübutları J.M.-i yalan ifadələr verməyə təhrik etmə kimi qiymətləndirib. ...
Yuxarı da qeyd edilənləri nəzərə alaraq və Cinayət Prosessual Məcəlləsinin müvafiq maddəsinə uyğun olaraq, qərara alındı:
1. ərizəçinin vəsatətləri bütünlüklə rədd edilsin; və
2. aidiyyəti olan şəxslərə qərar barədə məlumat verilsin".

Ərizəçi cənab X. AİHM-nə şikayət etdi ki, prokuror həmin qərarında onu təqsirkar elan etməklə Konvensiyanın 6-cı maddəsinin 2-ci bəndini pozub, həmin bənddə aşağıdakılar nəzərdə tutulur:

"Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir".

Mövqeyiniz?

*Hazırladı: Günel Sevdimaliyeva*